***Prezident İlham Əliyevin Vətən müharibəsinin ildönümü günlərində dünyanın aparıcı informasiya agentliklərinə, televiziya kanallarına verdiyi çoxsaylı müsahibələri Qarabağ müharibəsi haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq baxımından mühüm önəm daşıyır. Həmin müsahibələrdə dövlətimizin başçısı suallara dəqiq, məntiqli, faktlara söykənən cavabları ilə düşmənin və havadarlarının ölkəmiz haqqında yaydığı qərəzli, saxta məlumatları təkzib edir, əvvəllər olduğu kimi, indi də bütün avantüra, qarayaxma kampaniyaları və təzyiq cəhdlərinin qarşısını qətiyyətlə alır, xalqımızın beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri əsasında Vətən müharibəsində haqq savaşı apardığını bildirir.***



# “Budur Azərbaycan! Budur Azərbaycan xalqı!”

***Biz strateji nöqteyi–nəzərdən gələcəyə barış prizmasından yanaşırıq. Çünki mən istəyirəm ki, bir daha müharibə olmasın. Hər halda biz müharibə başlamayacağıq, əgər Ermənistan tərəfdə revanşist meyillər baş qaldırmasa. Əgər görsək ki, Ermənistanda bizə qarşı hər hansı bir təhdid yaranır, biz o təhdidi məhv etməliyik. Bu, bizim legitim hüququmuzdur. Ancaq bu təhdid olmasa, bizim başqa fikrimiz yoxdur.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

Dövlətimizin başçısı Türkiyənin Anadolu Agentliyinə verdiyi müsahibə də bu baxımdan xüsusi diqqət çəkir. Ölkə rəhbəri müsahibənin əvvəlində suala uyğun olaraq, Vətən müharibəsini şərtləndirən səbəbləri xatırladıb. Azərbaycan Prezidenti ötən il sentyabrın 27-si ərəfəsində, bundan da bir qədər əvvəl düşmən ölkənin Azərbaycana qarşı təxribatlarının müntəzəm xarakter aldığını bildirib: “Həm bizə qarşı yönəlmiş açıqlamalar, eyni zamanda, addımlar onu göstərirdi ki, Ermənistan yeni müharibəyə hazırlaşır. Mən bunun səbəblərini bu günə qədər də anlaya bilmirəm. Çünki 30 il ərzində digər dövlətin torpaqlarını işğal altında saxlayan bir dövlət yeni savaşa çıxmaq fikrində olursa, bu, çox ciddi araşdırılmalıdır ki, bunun səbəbi nədir. Sözümün təsdiqi olan addımlar da göz qabağındadır. Çünki iyul ayında Ermənistan Ermənistan – Azərbaycan sərhədində hərbi təxribat törətmişdir və bu təxribat nəticəsində 13 mülki şəxs və hərbçi həlak olmuşdur. Azərbaycan o zaman düşmənə layiqli cavab verdi. Ancaq biz dövlət sərhədini keçmədik. Yəni, sadəcə olaraq, onları girdikləri Azərbaycan ərazisindən çıxardıq və bir neçə gün davam edən toqquşma sona çatdı...”.

Yeri gəlmişkən, ötən ilin iyul hadisələri Ermənistanın Azərbaycana qarşı ilk təxribatı deyildi. İşğalçı dövlətin 30 il ərzində belə təxribatlarının sayı-hesabı yox idi. Ermənistan rəsmiləri, eləcə də qondarma “Dağlıq Qarabağ respublikası”nın baş separatçısı Araik Arutunyan ordumuzun dövlət sərhədinin Azərbaycan rayonları istiqamətində ermənilərə verdiyi dərsdən, eləcə də Aprel döyüşləri və Günnüt əməliyyatından nəticə çıxarmayaraq, ölkəmizə hədə-qorxu gəlir, yeni müharibə ilə yeni ərazilərimizi işğal edəcəklərini bildirirdilər. Hətta bu fitnəkarlıqla kifayətlənməyərək, işğal altında Azərbaycan ərazilərində yaradılan qondarma rejimin qondarma “strukturlarının” Xankəndindən Şuşaya köçürüləcəyi haqqında məlumat yayırdılar. Ancaq unudurdular ki, Azərbaycan istənilən savaşa adekvat cavab vermək gücündədir və heç bir qüvvə düşmən tapdağı altındakı torpaqları azad etməyə mane ola bilməz.

Burada bir məsələni də heç vaxt unutmamalıyıq. Bu da erməni faşizminin mahiyyəti ilə bağlıdır. Belə ki, uzun illər, lap elə Vətən müharibəsində parlaq qələbəmizdən sonra bu dövlətdə revanşist fikirlərin səsləndirilməsi, Azərbaycana qarşı hədə-qorxu gəlinməsi, əslində, Ermənistan rejiminin yırtıcı və terrorçu mahiyyətindən irəli gəlir. Ermənilərin bu cür xisləti hamıya məlumdur, onların faşizm mahiyyətindən bütün dünya xəbərdardır.

Burada bir məqamı da qeyd etmək istərdik. Belə ki, işğalçı tərəfindən Vətən müharibəsindən əvvəl beynəlxalq hüquq normalarına zidd bəyanatlar səsləndirilməsi qarşısında ATƏT-in Minsk qrupu həmsədrlərinin susması, heç bir fikir, münasibət bildirməməsi həmişə təəccüb və təəssüf doğurub. Əslində məlum münaqişənin həlli ilə birbaşa məşğul olan Minsk qrupu, eləcə də beynəlxalq təşkilatlar o zaman bununla bağlı Ermənistan hakimiyyətindən izahat tələb etməli idilər. Amma belə bir fitnəkarlığın susqunluqla qarşılanması anlaşılmaz idi. Bu, həmsədr ölkələrin birtərəfli mövqe tutmasından xəbər verirdi.

***(ardı 6-cı səhifədə)***

# “Budur Azərbaycan! Budur Azərbaycan xalqı!”

*(əvvəli 1-ci səhifədə)*

Belə təxribatlar N.Paşinyanın hakimiyyətə gəlişindən sonra daha da intensivləşdi. Şübhəsiz ki, belə bir vəziyyətin yaranması da təsadüfi deyildi. Dövlətimizin başçısının müsahibədə dəqiq təhlil etdiyi kimi, görünür ki, Ermənistan rəhbərliyi, hakimiyyətə yeni gələn rəhbərlik hansısa hərbi uğurla da öyünmək istəyirdi, hansısa hərbi uğur əldə etmək istəyirdi. Ancaq hesablamaları çox səhv apardılar, çox böyük xəta törətdilər və bunun nəticəsində acı məğlubiyyətə uğradılar.

Bəli, ermənilər, necə deyərlər, dinc dayanmırdılar. Sərhədlərimizdən təxribat qrupları keçirilir, təmas xətti pozulurdu. Şübhəsiz ki, belə vəziyyətdə onlar Azərbaycan hərbçiləri tərəfindən tərk-silah edilirdi: “Bir il bundan əvvəl Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının sessiyasında çıxış edərkən mən demişdim ki, Ermənistan yeni savaşa hazırlaşır. Üç gün sonra artıq yenidən bizim mövqelərimiz və yaşayış məntəqələrimiz artilleriya atəşinə tutulmuşdu, yenə də şəhidlər verdik və mənim əmrimlə genişmiqyaslı əks-hücum əməliyyatına başladıq və bildiyiniz kimi, bu əməliyyat böyük Zəfərlə nəticələndi”.

Azərbaycan Prezidenti müsahibədə müxbirin “Minsk qrupunun həmsədrləri və ya başqa amillər bu savaşın qarşısını ala bilərdilərmi? Əslində, qarşısını necə almalı idilər?”-sualına cavabında isə qeyd edib ki, əgər Minsk qrupu Ermənistana vaxtında ciddi təzyiq göstərsəydi, təbii ki, Ermənistan məcbur olub işğal edilmiş torpaqlardan çıxacaqdı və belə olan halda müharibəyə ehtiyac qalmazdı. Təəssüf ki, belə bir təzyiq olunmadı. Halbuki Minsk qrupuna həmsədrlik edən üç dövlət Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının daimi üzvü idi. Onlar dünya miqyasında ən güclü ölkələr sayılır. Həmin dövlətlərin siyasi çəkisi, siyasi imkanları Ermənistanı törətdiyi fitnəkarlıqlardan çəkindirməyə kifayət edirdi: “Sadəcə olaraq, nə hərb, nə sülh siyasətinə üstünlük verirdilər”.

Ermənistan havadarlarının, eləcə də Minsk qrupunun həmsədrlərinin susqunluğundan yararlanıb revanşist hərəkətlərini daha da gücləndirir, təxribatları daha da genişləndirir, yeni ərazilər işğal etmək iddiaları səsləndirir, torpaqlarımızı azad etmək fikrindən əl çəkmirdi. Amma onu bütün bu məkrli  siyasətindən çəkindirmək mümkün idi. Dövlətimizin başçısı müsahibədə bununla bağlı deyib: “Mən Minsk qrupunun həmsədrlərinə və digər böyük dövlətlərə dəfələrlə müraciət etdim ki, Ermənistana sanksiyalar tətbiq edilməlidir. Bu da savaşın qarşısını ala bilərdi. Çünki bu sanksiyalar Ermənistan üçün böyük çətinliklər yaşadacaqdı və onlar məcbur olub bizim torpağımızdan çıxacaqdılar. Yəni, biz bütün imkanlardan istifadə etdik ki, bunu sülh yolu ilə çözək, müharibə olmasın, qan tökülməsin. Ancaq bununla bərabər, mən deyirdim ki, biz bu vəziyyətlə barışmayacağıq. Nəyin bahasına olursa-olsun öz torpağımızı azad edəcəyik və sadəcə olaraq, şans verirdik...”.

Azərbaycan Prezidenti daha sonra Ermənistanın 2018-ci ildə hakimiyyətə gəlmiş yeni rəhbərliyinin də danışıqlar prosesinə böyük zərbə vurduğunu, müzakirə prosesini pozduğunu, yersiz və məsuliyyətsiz açıqlamalar bildirdiyini xatırladaraq, İkinci Qarabağ müharibəsinin başlanmasında ən böyük məsuliyyətin Ermənistanın və eyni zamanda, Ermənistanı vaxtında dayandırmayan böyük dövlətlərin üzərinə düşdüyünü qeyd edib.

Ölkə rəhbəri Vətən müharibəsində Azərbaycanın əldə etdiyi möhtəşəm qələbədən sonra bölgədə yeni reallıq yarandığı barədə də ətraflı məlumat verib. Bununla bağlı əvvəlcə onu bildirək ki, ölkəmizin tarixi zəfərindən sonra Cənubi Qafqazda yeni geosiyasi reallıq yaranıb, bütün istiqamətlər üzrə inteqrasiya və inkişafın, xüsusən də uzunmüddətli sülh və təhlükəsizliyin əsası qoyulub. Respublikamız, sözün əsl mənasında, bölgənin yeni güc mərkəzinə çevrilib. Prezident İlham Əliyevin həyata keçirdiyi düşünülmüş və uzaqgörən, eyni zamanda, qətiyyətli siyasət nəticəsində Azərbaycan dövləti bu uğurlara nail olmağı bacarıb.

İkinci Qarabağ savaşında məğlubiyyətə uğrayan Ermənistan ötən il noyabrın 10-da imzalanan  üçtərəfli Bəyanata əsasən üzərinə götürdüyü kapitulyasiyanın tələblərinin ödənilməsi barədə razılığa gəldi, şərtlərə uyğun olaraq, bir güllə belə atılmadan, heç bir itki verilmədən işğal edilən ərazimizin qalan hissəsi – əvvəlcə Ağdam şəhəri və rayonun işğal altında qalan kəndləri, növbəti mərhələdə isə ölkəmizin əzəli və əbədi torpaqları olan Kəlbəcər və Laçın rayonları rəşadətli Azərbaycan Ordusunun tam nəzarətinə keçdi.

Prezident İlham Əliyev müsahibəsində də bu barədə ətraflı bəhs edib: “Ermənistan bu Bəyanata imza atmaqla öz üzərinə öhdəliklər götürmüşdür və bu öhdəlikləri məcbur olub yerinə yetirdi. Bu öhdəliklərin yerinə yetirilməsi müharibədən dərhal sonra baş vermişdir. Yəni, o zaman işğal altında olan bölgələrdən erməni qüvvələrinin çıxarılması orada açıq-aydın göstərilirdi və müharibə bitəndən sonra 20 gün ərzində Ağdam, Kəlbəcər və Laçın rayonları bizə qaytarıldı. O zaman Ermənistan bu məsələyə çox məsuliyyətli yanaşırdı. Nə üçün? Çünki qorxu içində idi. Çünki bilirdi ki, əgər 10 noyabr tarixində bu Bəyanata imza atmasaydı, onların durumu daha pis ola bilərdi. Yəni, bizi dayandıracaq bir qüvvə yox idi və savaş dönəmində dəfələrlə mən Azərbaycan xalqına müraciət edərək deyirdim ki, Ermənistan bizə tarix versin, təqvim versin nə zaman bizim torpaqlarımızdan çıxır, biz dərhal müharibəni dayandırmağa hazırıq.

Bu tarix bizə noyabrın 9-da verildi, Ermənistan faktiki olaraq kapitulyasiya, yəni, təslim aktını imzaladı və noyabrın 10-da müharibə dayandı...”.

Məlum üçtərəfli bəyanatda öz əksini tapan ən əsas məsələlərdən biri isə Azərbaycanı Naxçıvanla birləşdirən dəmir yolu və avtomobil yolunun təmin edilməsi idi. Bu, olduqca vacib bir kommunikasiyadır və təkcə Azərbaycanın deyil, qardaş Türkiyənin, eyni zamanda, digər qonşu ölkələrin də iqtisadi maraqlarının reallaşdırılması baxımından əhəmiyyətlidir. Ancaq ölkə rəhbərinin müsahibədə vurğuladığı kimi, “Bu, bağlantı təmin edildimi? Xeyr. Amma bu bağlantını təmin etmək üçün o qədər də böyük zamana ehtiyac yoxdur. Orada quru yollarla məsafə cəmi 40 kilometrdir. Biz müharibədən sonra keçən bir il ərzində min kilometrdən çox yol çəkdik – həm torpaq yol, həm asfalt yol. İndi orada 40 kilometr yolun açılması böyük problem deyil. Ancaq buna baxmayaraq, – hətta Ermənistan buna razılıq da verib, – aparılan müzakirələr nəticəsiz qalıb. Yəni, Ermənistan 10 noyabr Bəyanatını, onun şərtlərini kobudcasına pozur. Biz hələlik səbirli, təmkinli davranırıq. Amma bizim səbrimizin də həddi var və İkinci Qarabağ savaşı göstərdi ki, səbrimiz tükənəndə nələr baş verir. Ona görə Ermənistan rəhbərliyinə şans veririk ki, noyabrın 10-da imzalanmış Bəyanatın bütün müddəalarını yerinə yetirsin və özünü məsuliyyətlə aparsın”.

Prezident İlham Əliyev müsahibəsində işğaldan azad edilən ərazilərimizdə aparılan bərpa-quruculuq işlərindən də danışıb. Dövlətimizin başçısı müharibədən dərhal sonra ölkəmizin bu sahədə də öz gücünü göstərdiyini diqqətə çatdıraraq deyib: “Bu işləri görmək üçün təkcə pul kifayət etməz. Çünki resurs olmalıdır, kadrlar olmalıdır, heyətlər olmalıdır, texniki imkanlar olmalıdır, səriştə olmalıdır. Biz bütün gücləri səfərbər etdik. Bu və digər məsələləri, məsələn, elektriklə bağlı olan məsələləri bu ilin sonuna qədər bitirəcəyik. Yəni, bütün bölgə elektriklə tam təmin ediləcək. Bildiyiniz kimi, yolların inşası da davam edir və sair”.

Dövlətimizin başçısının vurğuladığı kimi, hazırda düşməndən azad olunan torpaqlarda minatəmizləmə əməliyyatları ilə paralel şəkildə infrastruktur layihələri də reallaşdırılır. Ərazilərin elektrik təchizatı istiqamətində geniş miqyaslı tədbirlər həyata keçirilir, həm xətlər çəkilir, həm də yeni yarımstansiyalar tikilir. Yol infrastrukturunun yaradılması ilə bağlı bütün istiqamətlər üzrə işlər uğurla gedir. Qarabağın su təsərrüfatı, meliorasiya sistemi demək olar ki, tamamilə dağıdılmış vəziyyətdədir. Suqovuşan Hidroqovşağı və oradan su götürən Tərtərçay magistral kanalları işləksiz haldadır. Bütün bu infrastruktur obyektlərinin bərpası üçün Tədbirlər Proqramı hazırlanaraq, yaxın vaxtlarda icrasına başlanılması nəzərdə tutulur.

Prezident İlham Əliyev müsahibəsində bir sıra digər məsələlərlə bərabər, Türkiyə-Azərbaycan əlaqələrinə də toxunub. Ölkə rəhbəri Azərbaycanın haqq işinin-Qarabağ məsələsinin Prezident Rəcəb Tayyib Ərdoğanın xarici siyasət kursunda hər zaman mühüm önəm daşıdığını, onun ölkəmizin çətin günlərində, eləcə də Vətən müharibəsi dövründə Azərbaycanın yanında olduğunu xüsusi vurğulayıb: “Necə ki, savaşın ilk saatlarında o bildirmişdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu, bizə əlavə güc verdi və mənəvi güc verdi”,-deyə qeyd edib.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti.- 2021.- 30 sentyabr.- S.1;6.